# Sabirabad: pambıq yığımının qızğın çağıdır

***❐ Bu günlər Muğanda təbiətin gözəl vaxtıdır. Günəş əvvəlki kimi yandırıb-yaxmır, ılıq, mülayim payız günləri başlayıb. Son günlər havalar da əlverişli keçir. Fermerlər bundan istifadə edib tarlalarda min bir zəhmət hesabına hasilə gətirdikləri bol məhsulu itkisiz toplamağa çalışırlar.***

Hacıqabul tərəfdən Sabirabada gedən yolda ana Kürün üzərindəki möhtəşəm körpüdən keçən kimi, Sabirabad rayonunun ərazisi başlayır. Buradan rayon mərkəzinə aparan yolun hər iki tərəfində pambıq, yonca və taxıl sahələri uzanıb gedirdi.

Rayon mərkəzinə 10-12 kilometr qalmış Qaratəpə kəndində təcrübəli fermer, adlı-sanlı pambıq ustası Fatma Hüseynovanın pambıq tarlasına döndüm. Sahədə xeyli adam vardı. Bir yandan kombayn "ağ qızıl"ı toplayır, o biri yandan pambıqçılar maşından "gizlənən" qozaları yığırdılar. Sahədə, həqiqətən, iş qaynayırdı. Fatma Hüseynova, təbii ki, çox məşğul idi. Kiməsə göstəriş verir, kimisə tərifləyir, həvəsləndirirdi.

Bu məşhur pambıq ustası barədə dəfələrlə yazmışam. Bilirəm ki, işinə çox məsuliyyətlidir, həm də tələbkardır. Eyni zamanda, çox sadə, xeyirxah insandır. Heç kimin qəlbinə toxunmaq istəməz. Məni sahənin kənarında görüb yaxınlaşdı. Dedi ki, rəhbərlik etdiyi fermer təsərrüfatının üzvləri 15 hektar sahədə bol məhsul yetişdiriblər. Bu il hər hektardan rekord miqdarda –azı 40 sentner pambıq toplamağı düşünür. Ümid edir ki, bu hədəfə nail olmaq mümkündür. Axı, məhsul boldur.

2016-cı il sentyabrın 16-da möhtərəm Prezidentimiz İlham Əliyev bu tarlada olub, Fatma Hüseynovanın başçılıq etdiyi kollektivin üzvləri ilə mehriban görüşərək, səmimi söhbət edib. Fermer xatırlayır ki, dövlət başçısı ölkəmizdə pambıqçılığın yenidən bərpa edilməsi barədə göstəriş verdiyini bildirib.

Fatma xanım həmin an bu sözləri deyib:

– Cənab Prezident, çox düz edib pambıqçılığı bərpa etmisiniz. Allah Sizə ömür versin. Bax, bu, qızların çörəyidir, həyatıdır. Vallah, hamısı sevinir. Eşidən də deyir ki, Allah Prezidentin köməyi olsun ki, bunu bərpa etdi, təzədən qaytardı.

Yeri gəlmişkən, vaxtilə dahi siyasətçi Heydər Əliyev 1970-ci illərdə respublikada ən qabaqcıl pambıqçılıq briqadirlərindən biri olan Fatma Hüseynovanın pambıq sahəsində bir neçə dəfə olub. Məhz Heydər Əliyevin təşəbbüsü ilə Fatma Hüseynova Sosialist Əməyi Qəhrəmanı fəxri adına təqdim olunub. "Qızıl ulduz" medalını da ulu öndər şəxsən özü onun sinəsinə taxıb.

Ulu öndərlə bağlı xatirələr Fatma Hüseynova üçün çox əzizdir. Bu barədə böyük fəxrlə dedi:

– Rəhmətlik Heydər Əliyev çox böyük şəxsiyyət idi! Onun dövründə Muğan kəndlərinə bol ruzi-bərəkət gəldi.

Fatma xanım məmnunluqla bildirdi ki, Azərbaycan bu gün də Heydər Əliyevin yolu ilə gedir. Sonra dərin qürurla dedi:

– Xoşbəxtliyə baxın ki, bir il əvvəl isə möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən müstəqil Azərbaycanın 1-ci dərəcəli "Əmək" ordeninə layiq görülmüşəm.

Fatma Hüseynova ilə sağollaşıb yenidən rayon mərkəzinə yola düşdüm. Qonşu kəndlərdəki pambıq sahələrində həm xeyli texnika, həm də çox sayda pambıqçılar gözə dəyirdi. Yolboyu qarşıma ara-sıra pambıq dolu lafetlər də çıxırdı.

Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Nazim İsmayılov da kəndlərdən yeni qayıtmışdı. Əhval-ruhiyyəsi yaxşı idi. Dilinə gətirməsə də, rayonda builki pambıq yığımı kampaniyasının təşkilindən razı olduğu hiss olunurdu. Dedi ki, cənab Prezidentin göstərişi ilə pambığın hər tonunun satınalma qiymətlərinin 50 manat artırılması fermerlərin bu sahəyə marağını daha da yüksəldib.

N.İsmayılovun fikrincə, indi əsas vəzifə məhsulu mümkün qədər tez və itkisiz toplamaqdır. Bu məqsədlə, rayonun bütün texnika və işçi qüvvəsi səfərbər olunub, operativ qərargah yaradılıb.






Rayon kənd təsərrüfatı idarəsindən isə bildirdilər ki, bu il rayonda 13 min 55 hektar sahədə pambıq əkilmişdir. Fermerlər "MKT İK" MMC Sabirabad rayon filialı, "Azərpambıq" MMC, "Kənd təsərrüfatı" MMC, "Aqroaz" MMC ilə müqavilə bağlayıblar. Fermerlər il boyu texnika və yanacaq sarıdan çətinlik çəkməyiblər. İnsafən, rayonun əksər kəndlərində bu il yaxşı məhsul yetişdirilib.

Təqdirəlayiq haldır ki, Sabirabad rayonunun rəhbərliyi bu işi elmi əsaslarla qurmağa çalışır. Təsadüfi deyil ki, builki pambıq yığımından bir müddət əvvəl Sabirabad şəhərindəki Heydər Əliyev Mərkəzində Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı ilə "Pambığın becərilməsində aqrotexniki tədbirlərin təşkili" mövzusunda müşavirə keçirilib. Tədbirdə kənd ərazi icra nümayəndələri, bələdiyyə sədrləri, pambıqla əlaqədar şirkətlərin təmsilçiləri, sahibkarlar, fermerlər, eləcə də meliorasiya idarələrinin nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə Sabirabad RİH-in başçısı Nazim İsmayılov açaraq qeyd edib ki, belə müşavirələrin böyük əhəmiyyəti var. Belə ki, elmi biliklərlə təcrübənin mübadiləsi sahənin inkişafına təkan verə bilər.

Müşavirədə kənd təsərrüfatı nazirinin müavini Seyfəddin Talıbov, Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru İbrahim Cəfərov, Kənd Təsərrüfatı Nazirliyi aparatının bitkiçilik şöbəsinin müdiri İmran Cümşüdov, Respublika Bitki Mühafizəsi Mərkəzinin rəisi Damət Sultanov, Bitki Mühafizəsi və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun direktoru Azad İbrahimov çıxış ediblər. Tədbir iştirakçıları, eləcə də qonaqlar yuxarıda haqqında söhbət açdığım Prezident təqaüdçüsü, fermer Fatma Hüseynovanın pambıq sahələrinə baxıblar.

Son illər Sabirabadda kənd təsərrüfatının bütün sahələrində böyük uğurlar əldə olunub. 2017-ci ildə 2018-ci ilin məhsulu üçün 24645 hektar sahədə taxıl əkilmişdir. Bunun 15215 hektarı buğda, 9430 hektarı isə arpa sahəsi olmuşdur. Cari ildə 97093 ton taxıl istehsal edilmişdir ki, bunun da



61925 tonu buğda, 35168 tonu arpa olmuşdur. Ötən illə müqayisədə taxıl 1373 ton çox olmuşdur. Hər hektardan 39,4 sentner məhsul götürülmüşdür ki, bu da ötən ildə olduğundan çoxdur.

Rayonda baramaçılıq kimi çox vacib olan kənd təsərrüfatı sahəsi də inkişaf etdirilir. Cari ildə 14 ton 126 kiloqram barama istehsal olunmuşdur.

Sabirabadda yaxşı başa düşürlər ki, əkin sahələrini kifayət qədər suvarma suyu ilə təchiz etmədən bol məhsul toplamaq mümkün deyil. Buna görə də bu sahəyə daim diqqət göstərilir. Ölkə başçısının tapşırığına əsasən, rayonun Moranlı, Sarxanbəyli, Bala Həşimxanlı və digər kəndlərinin suvarma təminatının yaxşılaşdırılması üçün mənbəyi Kür çayından olmaqla, uzunluğu 30 kilometr olan "H" kanalının çəkilməsinə başlanılmışdır. Yaxın vaxtlarda kanal istifadəyə veriləcək. Bu işin başa çatdırılması üçün ölkə Prezidentinin 3 mart 2018-ci il tarixli sərəncamı ilə 22 milyon 358 min manat vəsait ayrılmışdır. Layihənin tam başa çatdırılması 11 min 498 hektar sahənin su təchizatının yaxşılaşdırılmasına imkan verəcək.

Bir məsələni vurğulamağı özümə borc bilirəm. Sabirabad rayonu ölkəmizin aqrar sektorunda xüsusi çəkisi olan böyük rayonlardan biridir. Burada həm aqrar sahənin qayğı və problemlərinin həlli üçün, həqiqətən, gərgin işlər görülür. Lakin Sabirabadda heç vaxt digər sahələr yaddan çıxmır, unudulmur.

Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Nazim İsmayılovun maraqlı iş üslubu var. O, insanların qayğı və problemləri ilə yaxından tanış olmağı, əhalini narahat edən məsələləri yerindəcə həll etməyi xoşlayır. Buna görə də tez-tez səyyar qəbulları təşkil olunur.

Məsələn, RİH başçısının bir müddət əvvəl rayonun Əsədli kənd sakinləri ilə görüşü keçirilib. Tədbirdə RİH başçısı aparatının məsul işçiləri, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və xidmət təşkilatlarının rəhbərləri iştirak ediblər.

Nazim İsmayılov son illər ölkəmizdə və rayonda qeyri-neft sektorunun inkişafı istiqamətində görülən işlərdən danışıb. Bildirib ki, aqrar sahənin inkişaf etdirilməsi əhalinin məşğulluğunun təmin olunması, onların sosial-rifah halının yaxşılaşdırılması deməkdir. Kənd sakinlərindən Məmmədhəsən Həsənov, Saleh Abuşov, Həsənağa Nəsirov, Əlizamin Soltanov və başqaları tədbirdə çıxış edərək kənddə uğurla görülən işlərdən, həllini gözləyən bir sıra problemlərdən bəhs ediblər. Bir çox məsələlər yerindəcə həllini tapıb ki, Əsədli kənd sakinləri bundan çox razı qalıblar.

Sabirabadda son illər heç vaxt yaddan çıxmayan, əksinə, daha çox diqqət və qayğı ilə yanaşılan sahələrdən biri də tikinti-quruculuq, abadlıq sahəsidir. Bu gün Sabirabad şəhəri respublikamızın ən abad, yaraşıqlı rayon mərkəzlərindən biridir. Burada həyata keçirilən tikinti-quruculuq, abadlıq işləri həm sürətinə, həm də vüsətinə görə seçilir.

Sabirabad RİH başçısının birinci müavini Həsən Həsənov bildirdi ki, Azərbaycan Prezidentinin Sabirabad şəhərində çoxmənzilli binaların əsaslı təmiri və abadlıq-quruculuq işlərinin davam etdirilməsi ilə bağlı ayırdığı vəsait hesabına Heydər Əliyev prospektində yerləşən 2 a, 2 d, 2 q, 62 və 25 a saylı beşmərtəbəli, Səməd Vurğun küçəsindəki 8 və 8 a saylı, Həsən Ağayev küçəsindəki 10 saylı ikimərtəbəli yaşayış binalarında cari təmir, ətraflarında isə abadlıq işləri aparılmışdır. Heydər Əliyev prospektində 4, 2 c saylı ikimərtəbəli və Bəndatma İdarəsi 1 saylı birmərtəbəli yaşayış binalarının dam örtükləri dəyişdirilmişdir.

Şəhərin Ordubadi, Vüqar Əhmədov, 20 Yanvar, İsmət Qayıbov, Babək, İlham İsgəndərov, Şəhriyar, Qurban Namazəliyev, Heydər Həmidov, Füzuli, Vidadi, Nərimanov, Mirhəsən Mirağaoğlu küçələrinə, ümumilikdə, 17 kilometr məsafəyə asfalt döşənmişdir.

Yeri gəlmişkən, Sabirabadda təkcə rayon mərkəzində deyil, kəndlərdə də tikinti-quruculuq işləri geniş vüsət alıb. Burada aparılan quruculuq işlərinin səciyyəvi cəhətlərindən biri budur ki, bu işlərə rayon idarə və müəssisələrinin kollektivləri də cəlb olunurlar.

Sabirabadda yeni məktəblərin tikintisi, onların maddi-texniki bazasının möhkəmləndirilməsinə böyük diqqətlə yanaşılır. Hazırda 360 şagird yerlik Yaxa Dəllək kənd tam orta məktəbində tikinti işləri başa çatmaq üzrədir. 1176 şagird yerlik Qaratəpə kənd tam orta məktəbində əsaslı təmir davam etdirilir.

Rayonda son illər ərzində əhalinin təbii qazla təminatını yaxşılaşdırmaq üçün xeyli iş görülmüşdür. Hazırda rayon mərkəzinə və 62 kəndə təbii qaz verilir. Rayonun Yolçubəyli və Zəngənə kəndlərinə təbii qaz verilmişdir. Cari ildə Yastıqobu, Yuxarı Axtaçı kəndlərinə və Rüstəmli kəndində Zəngilan rayonundan olan məcburi köçkünlər üçün salınmış qəsəbəyə təbii qaz xəttinin çəkilişi nəzərdə tutulmuşdur.

Bir müddət əvvəl Sabirabad rayonunun Yuxarı Axtaçı kəndinə təbii qazın verilməsi kənd sakinlərinin böyük sevincinə səbəb olub. Belə ki, 240 abonenti olan kəndin qazlaşdırılması üçün birpilləli sistem əsasında ümumi uzunluğu təxminən 27 min metr müxtəlif diametrli metal borularla daşıyıcı, paylayıcı və məhəlladaxili qaz xətləri çəkilmiş, mənzillərə sayğac və fərdi tənzimləyici quraşdırılmışdır.

Mədəniyyət Nazirliyi tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə keçirilən "Bölgələrdən–bölgələrə" yaradıcılıq festivalı davam edir. Layihənin məqsədi zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqının mədəni irsinin təbliği, regionların mədəni potensialının nümayiş etdirilməsi, bölgələrarası mübadilənin gücləndirilməsidir. "100 illik tariximiz" adı altında gerçəkləşən festivalın növbəti tədbiri Sabirabad şəhərindəki Heydər Əliyev parkında təşkil olunmuşdur. Parkda Mədəniyyət Nazirliyinin 15 regional idarəsinin– Sumqayıt, Gəncə, Xaçmaz, İsmayıllı, Şəki, Kürdəmir, Ağstafa, Şəmkir, Bərdə, Ağcabədi, Ağdaş, Sabirabad, Lənkəran, Masallı və Biləsuvar regional mədəniyyət idarələrinin festival çadırları qurulmuş, şəhər və rayonların mədəni irsini əks etdirən sənətkarlıq nümunələri, rəsmlər, suvenirlər və digər əl işlərinin satış-sərgisi keçirilmişdir.

Sabirabadda qeyri-hökumət təşkilatları ilə uğurlu iş qurulub. RİH başçısı aparatının ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri İlham Əsgərov bu sahədə görülən bir neçə maraqlı tədbir haqqında xeyli məlumat verdi. Onun sözlərinə görə, belə uğurlu tədbirlərdən biri də bu yaxınlarda Sabirabad şəhərində keçirilən "Aran iqtisadi rayonunda "Özünüməşğulluq proqramına dəstək" layihəsi çərçivəsində təlimi olub.




Təlimdə layihə rəhbəri Vidadi Quliyev, təlimçilər M.Mehdiyev, Ş.Qarayeva iştirakçılara işsiz və işaxtaran vətəndaşlara özünüməşğulluq proqramının verdiyi imkanlardan söz açıblar. Təlimlərin yekununda aparılan müzakirələrdə rayon məşğulluq idarəsinin əməkdaşları ilə birlikdə işsiz və işaxtaran vətəndaşların təklifləri qiymətləndirilib.

Həmin gün Sabirabadda hara getdimsə, kiminlə görüşdümsə, hər yerdə səmimi, işgüzar ab-havanın şahidi oldum. Sabirabad RİH başçısı Nazim İsmayılov əmindir ki, sabirabadlılar möhtərəm Prezidentimiz İlham Əliyevin rayon rəhbərliyi, əmək kollektivləri qarşısında qoyduğu bütün məsul vəzifələri hər zaman olduğu kimi, bundan sonra da böyük həvəslə və fədakar əməklə yerinə yetirəcəklər.

***Səməd HÜSEYNOĞLU,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***